# Teatrlarımızın uşaqlara Yeni il hədiyyələri

Hər ilin qışı bir ilin sonunu, eyni zamanda, başqa bir ilin başlanğıcını gətirir. Yeni il bayramını ən çox gözləyən isə, yəqin ki, uşaqlardır. Çünki bu bayran onlar üçün şənlik, Şaxta baba, Qar qız, yolka və hədiyyələr deməkdir. Daha çox teatr binalarında və digər mədəniyyət ocaqlarında sevilən aktyorların ifasında keçirilən Yeni il şənlikləri də uşaqların marağına və sevincinə səbəb olur.











Mədəniyyət müəssisələrimiz, xüsusən, teatrlarımız hər il olduğu kimi, bu dəfə də uşaqları xüsusi bayram repertuarları ilə sevindirəcəklər. Aldığımız məlumata görə, bu, mədəniyyət ocaqlarımızın əksəriyyəti bayramda yeni tamaşalarla və sevimli nağılların qəhrəmanları ilə birlikdə uşaqların görüşünə gəlirlər.

Azərbaycan Dövlət Musiqili Teatrından bildirilib ki, hər il olduğu kimi, bu il də 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 2020-ci il - Yeni il bayramı münasibəti ilə qış tətili günlərində uşaqların istirahətlərini mənalı və xoş keçirmələri üçün xüsusi hazırlıq görüblər. Teatr bu dəfə onlara bayram əhvali-ruhiyyəli "Şaxta baba, Bremen musiqiçiləri və Penin nağılı" tamaşasını təqdim edir. Yeni il tamaşalarının dekabrın 27-dən yanvarın 5-dək hər gün dörd seans olmaqla nümayişi nəzərdə tutulub.

Şən musiqiləri, teatrın balet truppasının rəqsləri, nəzərəçarpacaq, rəngarəng dekorasiyaları, işıq effektləri ilə diqqəti çəkən tamaşanın quruluşçu rejissorları Anar Babalı və Zaur Əliyev, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, quruluşçu rəssamı Afaq Bayramova, rejissoru Elməddin Dadaşovdur.

Tamaşada Əməkdar artist Novruz Qartal, aktyorlar Əmrah Dadaşov, Ruslan Mürsəlov, İrana Kərimova, Pərvin Dadaşova, Zaur Əliyev, Zarina Qurbanova, Mehriban Rəcəbova, Eleanora Mehdiyeva, Nərmin Əliyeva, Fərid Rzayev, Murad Əliyev, Elməddin Dadaşov, Əli Kərimov, Elnur Zeynalov, kiçik yaşlı aktyor Rahib Məmmədzadə çıxış edirlər.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında da Yeni il şənlikləri təşkil edilib. Teatrdan verilən məlumata görə, bu münasibətlə "Şaxta Baba və Befan nənələr" adlı tamaşa hazırlanıb. Müəllifi və quruluşçu rejissoru Emil Əsgərov olan səhnə əsərinin rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, rəqslərin quruluşçusu Lalə Hacıyeva, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti isə Xanım Həsənovadır.

Bayram tamaşasında rolları Əməkdar artistlər Mətləb Abdullayev, Əlfida Cəfərov, Mehriban Xanlarova, Sevinc Əliyeva, aktyorlar Fəridə Şahbazova, Dilarə Nəzərova, Vüsal Mustafayev və başqaları ifa edirlər.

Akademik Rus Dram Teatrı isə öz qapılarını uşaqlara "Sehrli Yeni il macəraları" tamaşası ilə açacaq. Səhnəyə eyni vaxtda beş Şaxta baba çıxacaq.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrından aldığımız məlumata görə, bu il uşaqlara Ron Hovardın "Qrinç (Yaşıl adam)" əsərini təqdim edirlər. Tamaşanın quruluşçu rejissoru Elşad Rəhimzadədir. Rolları Ramil Məmmədov, Ceyhun Məmmədov, Asya Atakişiyeva, Müşfiq Əliyev, Gülbəniz Lətifova və başqaları ifa edirlər. Bayram tamaşası dekabrın 26-dan yanvarın 5-dək nümayiş olunacaq.

Daha bir mədəniyyət ocağı - Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı bu il də uşaqları sevindirir. Teatr balacaların görüşünə "Qış karnavalı" ilə gəlib. Rejissor Anar Məmmədovun quruluş verdiyi Yeni il tamaşası dekabrın 26-dan yanvarın 5-dək təqdim olunacaq.

Beləliklə, teatrlarımız bu il də uşaqların Yeni il bayramını daha çox yaddaqalan, unudulmaz etmək üçün hazırlıq görüblər. İndi isə bu mədəniyyət ocaqlarımız onların yollarını gözləyir.

***Zöhrə FƏRƏCOVA,***
***Ağəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 31 dekabr.- S.11.